# Təkəlülər

**I Şah İsmayıl dövrü (1501 – 1524)**

Yuxarıda bir neçə dəfə deyildiyi kimi, bunlar əsas etibariylə Təkə Eli və ya sadəcə Təkə deyilən Antalya bölgəsi Türklərindən idilər. Aralarında Hamid eli (İsparta – Burdur bölgəsi) və Məntəşə eli (başlıca olaraq Muğla vilayəti) əhalisindən kimsələr vardı. Təkəlülər dövlətin quruluşunda mühüm bir rol oynadıqdan sonra, hicri 916 (miladi 1510-1511) ilində Şahqulu Baba üsyanı dolayısı ilə 15,000 insanın İrana gəlməsi ilə daha çox qüvvətləndilər. Dövlətin quruluşunda rol oynayan və möhrdarlıq vəzifəsinə gətirilən Təkəlü Möhrdar Saru Əli 912-ci (1506) ildə Şamlu Abdi Bəy ilə Kürd Sarım üzərinə göndərildi isə də başarı göstərə bilməyib çarpışmada öldürüldü. Yenə dövlətin quruluşunda rol oynayan digər bir Təkəlü bəyi də Burun Sultan olub bu tarixdə Məşhəd əmiri idi. Yuxarıda adı keçən əmirlərdən savayı Təkəlü Yegən Sultan, Çuxa Sultan, Rəis Bəy ilə Şərəfəddin Bəyin də Şahqulu Təkəlülərindən öncə Şah İsmayılın xidmətində bulunduqlarını bilirik. Hətta Şahqulu Baba Təkəlülərinin İran torpağına ayaq basdıqlarını öyrənən Şah İsmayıl, bunların durumunu anlamaq üçün Çuxa Sultanı göndərmişdi. Ancaq bu tarixdə başlıca olaraq Burun Sultan, Çuxa Sultan, Qaraca Sultan (Həmədan valisi), Əxi Sultan, Çirkin Həsən, Təkəlülərin ən başda gələn bəyləri idilər. Bunlar da böyük ehtimalla Şahqulu Təkəlülərindən öncə İrana gəlmişlər.

**I Şah Təhmasib dövrü (1524 – 1576)**

Əski Herat valisi Qazi Xanın, hərhalda Təhmasibin onun haqqında yaxşı niyyət bəsləmədiyindən şübhə edərək İraqeyn səfəri əsnasında Osmanlılara iltica etməsindən sonra Şahın xidmətində başda gedənlərdən yalnız Şərəfəddin Oğlu Məhəmməd Xan ilə bəlkə qohumlarından ikinci dərəcədə bir neçə əmir qalmışdı. Anlaşılacağı üzrə, Məhəmməd Xanda oymaqçılıq təəssübü yox kimi görünür. Ona sığınan, vəzifəsini borclu bulunduğu, Çuxa Sultanın oğlunun belə, tərəddüt etmədən, boynunu vurdurub Təhmasibə göndərdiyi kimi, Sultan Süleyman Qanuninin yaxınlaşması üzrə Bağdadı buraxıb hökmdarının buyruğunu yerinə yetirmişdi. Məhəmməd Xan bu sədaqətinin mükafatı olaraq hicri 942 və ya 943-cü ildə Herata vali təyin edilən Təhmasibin ən böyük oğlu Məhəmməd Mirzəyə lələ təyin olundu. Ancaq Məhəmməd Mirzənin valiliyi bir addan ibarət olub bütün işlər Məhəmməd Xan tərəfindən görülürdü. Şərəfəddin Oğlu 964-cü (1557) ildə vaqe olan ölümünə qədər Herat valiliyində qaldı. Bu tamamiylə onun bacarıqlı bir əmir olması ilə bağlıdır. Ancaq sərt təbiəti yalnız yegənlərini deyil, eyni zamanda oğullarından bəzilərini dəxi ona qarşı qoymuşdu. Hətta 963-cü (1556) ildə İsmayıl Mirzəni Herata gətirən Təkəlü Əli Sultan, Məhəmməd Xanın oğulları Tatar Sultan ilə Əli Bəy və Üveys Sultanın oğlu Şərəfəddin Bəy başda olmaq üzrə, yegənləri ilə birləşərək ona ağır sözlər söyləmiş və hətta öldürməyə belə təşəbbüs etmişdi. Ancaq Əli Sultan, Məhəmməd Xanın şikayəti üzrə, Şah tərəfindən Gürcülərə təpiklətdirilərək öldürüldü. Yuxarıda İraqeyn Səfəri əsnasında Osmanlılar tərəfinə keçdiyindən bəhs edilən Təkəlü Çirkin Həsən oğlu Qazi Xana bəylərbəyilik biçimində Bağdad bölgəsinin yarısı verilmişdi. Ancaq haqqında edilən şikayətlər üzrə İstanbula çağırıldı isə də Qazi Xan bu əmri dinləməyərək, 947-ci (1540 – 41) ildə 5-6 min nəfər ilə İrana qayıtdı. Təhmasib, Qazi Xanı Şirvan valiliyi ilə mükafatlandırdı; ancaq Səfəvi hökmdarı, şeytan təbiətli, hiyləgər və yalançı bir insan olaraq xarakterizə etdiyi bu Təkəlü bəyini iki qardaşı (bunlardan birinin adı Mustafadır) və yaxın adamları ilə birlikdə öldürtdü. Herat valisi Məhəmməd Xana gəlincə, hicri 964-də (1556 – 1557) ölümü üzrə vəzifəsi oğullarından Qazağa verildi. Qazaq cəsur bir insan, bacarıqlı, ərkli bir sərkərdə olub, Özbəklərə qarşı bir çox uğur qazanmışdı. Ancaq zalım bir əmir idi.

Hətta Heratlılara etdiyi zülmdən dolayı bir şair onu ikinci Həccac olaraq xarakterizə etmişdi. Qaynaqlara görə Qazaq son illərdə özbaşına hərəkət etməyə başlamış və özünü Heratda bağımsız hökmdar olmaq arzusunə qapdırmışdı. Qazağın üsyankar davranışını öyrənən Şah Təhmasib, Mustafa Bəy, Əhməd Bəy, Müseyyib Bəy, Üveys Sultan oğlu Şərəfəddin Bəy kimi, Herat valisinin qardaş və əmisi oğullarına gizlicə xəbər göndərib hansı Qazağı öldürərsə vəzifəsini ona verəcəyini söz vermişdi. Ancaq onlar Qazağa qarşı bir şey edə bilmədiklərindən Məşhəddə bulunan böyük əmirlərdən Səfəvi Məsum Bəy, Şahın buyruğu üzrə, yanında bəzi şahzadələr də olduğu halda, Herata gedib qrijadan yeriməyə belə taqəti olmayan Qazağı asanca ələ keçirdi. Qazaq üç-beş gün sonra öldü (hicri 972 = 1564 – 65). Şərəfəddin Oğlu ailəsinin əslən Anadoludakı Məntəşəli (başlıca Muğla bölgəsi) olduğu anlaşılır. Ancaq Qazaq Xanın üsyanının özündən başqa oymağının əhalisinə də zərəri oldu. Əsasən Üləmanın üsyanı və Osmanlılara ilticasından Təkəlülərə qəzəblənmiş olan Şah, bu olay üzrə onları uzunca bir sürə dirliksiz buraxdı. Bu da Təkəlüləri pərişan bir duruma saldı. Sonunda Səfəvi hökmdarı ölümündən bir il öncə «Türklərin yaşamaqdan xoşlanmadıqları» rütubətli və malyariyalı Gilanda (Biye Piş tərəfdə) onlardan bəzilərinə dirliklər verdi (hicri 983 = miladi 1576). Bəhs edilən bu olaylar Güney-Batı Anadolulu Türklərin, Anadolunun digər bölgələrindən gedən Türklərə nəzərən daha fəal, daha yaxşı savaşçılar, daha iddialı və daha qüvvətli şəxsiyyətə sahib insanlar olduqları fikrini verir. Təhmasibin öldüyü ildə, Şərəfəddin Oğlu Vəli Sultan Xorasanda kiçik bir dirliyə sahib idi. Solağ (Solak) Hüseyin ilə Ərdoğdu Xəlifə kimi Təkəlü əmirlərinin dirlikləri də Gilanda bulunurdu.

### II Şah İsmayıl və Sultan Məhəmməd Xudabəndə dövrü (1576 – 1587)

Bu oymağın dirliyi başlıca olaraq Həmədan və Rey bölgəsi idi ki, bunlar da ən çox gəlir gətirən əyalətlər arasında sayılırdı. Ancaq Sayınqala savaşından sonra bu dirliklər Ustacalu və Şamluların əlinə keçdiyi kimi, Təkəlülərin bir qismi də Osmanlılara sığınmaq məcburiyyətində qaldı. Bu hadisədən sonra Təkəlülərin ulduzu bir daha parlamamaq üzrə tamamən söndü. Onlar ikinci dərəcədəki oymaqlar arasına düşdülər. Şirvanın Osmanlılar tərəfindən fəthi üzrə də Təkəlü Ərdoğdu Xəlifə və oğulları oradakı dirliklərini itirdilər.

### I Şah Abbas dövrü (1587 – 1629)

Təkəlülərin Türkmanlar ilə müttəfiqlikdə, Həmzə Mirzə dəstəsindəki Ustacalu, Şamlu və Zülqədərlilərə qarşı etdikləri Sayınqala savaşından sonra pərişan bir duruma düşüb bir qisminin Bağdada getdiyindən əvvəlcə bəhs edilmişdi. Təkəlülər Şah Abbas çağında (hicri 1005 = miladi 1596 – 97) da öldürücü bir zərbə aldılar. Gerçəkdən də onlardan bir neçə nəfər, bunlara vəzifə verilməməsindən, Amul hakimi Məlik Bəhmənin xidmətinə girmişdilər. Bunu xəbər alan Şah Abbas, bütün Təkəlülərin öldürülmələrini əmr etdi. Onların çoxu bu əsnada Həmədan bölgəsində yaşayırdılar. Həmədan bəylərbəyisi Kürd Çəkəni Həsən Xan, Təkəlülərin çoxunu öldürdü. Onlar arasında Şərəfəddin oğlu Mustafa Xan ilə Vəli Bəy də bulunurdular. Təkəlü əmirlərindən Solağ (Solak) Hüseyinin oğlu Bayram Xan (yaxud Allah Virdi Xan) da, anlaşıldığına görə, Bağdada qaçır. Şah Abbas, hiddəti yatışdıqdan sonra sağ qalan Təkəlü qorucularını vəzifələrində saxladı. Bayram Xan Cəlalilərdən Bağdad valisi Uzun Əhməd Paşanın oğlu Mustafa Paşanın şəhəri Şaha təslim edəcəyinə dair müjdə ilə 1016-cı (1607 – 8) ildə Abbasın hüzuruna gəldi. Ancaq Mustafa Paşa Hilləyə qarşılıq Cağaloğlu Mahmud Paşa ilə anlaşdı. Bayram Xandan bir daha bəhs edilmədiyinə görə, Abbasın onu da ortadan qaldırmış olması mümkündür. Şah Abbas hicri 1018-ci (1609

– 1610) ildə Təkəlüdən Şah Nəzər Sultana Məşhədi vermişdi. Yenə bu dönəm əmirləri arasında Təkəlülərdən Mürşidqulu Bəyin adı keçir.

Şah Abbasın ölümü əsnasındakı oymaqların əmirlərinə dair cədvəldə Təkəlülərə mənsub heç bir əmirdən bəhs edilməməsi, onların qorucular istisna olmaqla, tamamən ortadan qaldırılmış olduqlarını göstərir. Gerçəkdən Şah Səfi zamanında qorucu yüzbaşılar Təkəlüdən bircə Vəli Bəyin adı keçir ki, o da 1030-da (miladi 1629 – 30) Hüsrəv Paşa ilə Bəydili Zeynal Xan arasında edilən Həmədan savaşında ölmüşdür.

Təkəlülər, əvvəlcə də bildirildiyi kimi ümumiyyətlə Təkə (Antalya bölgəsi) ilə qismən Məntəşə (Muğla bölgəsi) və Hamid (İsparta – Burdur bölgəsi) yörələrinin kəndlilərindən ibarət idi. Bu üzdən onlarda oymaq təşkilatı görülməz. Şərəfəddin oğullarının əslində Məntəşəli olduğu anlaşılır.

Hicri 1014-cü (1605 – 6) ildə İrəvan valisi Əmirgünə Xan ilə savaşan Məhməd-i Təkəlü adlı Osmanlı sancaq bəyinin, bu Təkəlülərdən olması ehtimalı yüksəkdir. On doqquzuncu yüzildə Çukurovada yaşayan və sayı 600 nəfər olan Təkəli oymağının bu Təkəlülərlə ilgili olub olmadığı üzərində indilik heç bir şey söylənə bilməz.

Təkəlülər, Səfəvi dövlətinin siyasi həyatında görmüş olduğumuz üzrə, önəmli rollar oynamış olduqları kimi, onlar, eyni zamanda, mədəniyyət həyatında da ən çox varlıq göstərən oymaqlar arasında yer alırlar.

Şeirlə məşğul olan Təkəlülərin başında Müseyyib Xanı vurğulamaq gərəkdir. II Şah İsmayıl və Sultan Məhəmməd Xudabəndə dövrü olayları arasında Müseyyib Xanın adı tez-tez keçmiş və hətta xanədana kürəkən olmaq ümidini itirdikdə Sultan Məhəmməd Xudabəndəyə yazdığı bir rübaidən də bəhs edilmişdi. Müseyyib Xan, Ustacalu Əliqulu Xan ilə Şamlu İsmayılqulu Xanın dövlətə hakim olmalarından sonra Gilana sığınmışdı. Abbas taxta keçdikdə Qəzvinə qayıtdı və Tehran valiliyinə təyin edildi. Ancaq bu, çox sürmədi. Əski əmirləri tamamən aradan götürmək siyasətini güdən Abbas, Şərəfəddin Oğlunu da digər bəzi əmirlər ilə birlikdə Rey dolaylarındakı Gülxəndan qalasına dustaq etdi və hicri 988-ci ilin sonlarında öldürtdü. Sadıq bəy Avşar, Müseyyib Xanı bizə xoşxasiyyət, təvazökar, Qızılbaş əmirləri arasında onun qədər qabiliyyətli çox az kimsənin bulunduğu bir gənc olaraq tanıdır. Musiqidə çox mahir olub bir çox bəstələri bulunduğunu söyləyən Sadıq bəy Avşar, Müseyyib Xanın, eyni zamanda, hər növ şeir söylədiyini və gözəl nəstəliq yazdığını da bildirir. Eyni müəllif Müseyyib Xandan başqa Şah İsmayıl və Təhmasib çağlarındakı Təkəlü Qaraca Sultanın nəslindən Məhəmməd Bəy (Məzaki) ilə Xoş Tab Balının (hicri 965 = miladi 1558-də Türkman Aba ilə edilən savaşda ölmüşdür) və Təkəlü bəyzadələrindən Müşribinin də şair olduqlarından bəhs edir.

---

**Faruk Sümer — *«Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü»***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**